

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 153 (21.054)

14 avqust 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksinin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub.

Dövlət başçısına görülən işlərlə bağlı məlumat verildi.

Qeyd edildi ki, Məktəb-Lisey Kompleksi 2010-cu ildə Bakı Slavyan Universiteti Humanitar Liseyinin və Bakı şəhər 15 nömrəli tam orta məktəbin bazasında yaradılıb. Kompleksdə minə yaxın şagird təhsil alır. Məktəb-liseydə 33 sinif fəaliyyət göstərir. Təhsil Azərbaycan və rus dillərində həyata keçirilir. Azərbaycan bölməsində 600, rus bölməsində isə 400-dək şagird təhsil alır. Məktəbin binası 1935-ci ildə inşa olunub. Əvvəllər hospital kimi fəaliyyət göstərən bina 1958-ci ildə məktəbə çevrilib. Bu müddət ərzində məktəb binası ilk dəfə olaraq əsaslı şəkildə təmir edilir. Binada bənd-bərkitmə işləri həyata keçirilib.

Yeni dərs ili ərəfəsində təhsil kompleksinin 4800 kvadratmetr ərazisi əsaslı şəkildə yenidən qurulub, lisey ən müasir tədris ləvazimatları və avadanlıqla təchiz edilib. Binanın birinci mərtəbəsində xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində görülən işləri əks etdirən fotostend yaradılıb.

Dövlət başçısı təhsil kompleksinin sinif otaqlarında, fənn kabinetlərində yaradılan şəraitlə tanış oldu.

Kompleksin istilik və işıqlandırma sistemləri, akt zalı, açıq və örtülü idman meydançaları yüksək standartlara uyğun şəkildə yenidən qurulub. Məktəb-Lisey Kompleksinin həyətyanı sahəsində də abadlıq və quruculuq işləri həyata keçirilib.

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilir



*Avqustun 13-də Babək Rayon İcra Hakimiyyətində 5 avqust 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı tədbir keçirilib.*

Tədbiri Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açıb. Bildirilib ki, Babək rayonunda payız-qış mövsümünə hazırlığın vəziyyəti daim diqqət mərkəzində saxlanılır. Rayon mərkəzində yerləşən 29 təşkilatdan 25-i və 5 mərtəbəli, 60 mənzilli yaşayış binası qazanxana ilə qızdırılacaq. Rayonda fəaliyyət göstərən 34 təhsil müəssisəsindən 23-ü, 72 mədəniyyət müəssisəsindən isə 43-ü, 33 səhiyyə müəssisəsindən isə 21-i qazanxana ilə, 6 təhsil, 24 mədəniyyət, 8 səhiyyə müəssisəsi ağ neftlə, 5 təhsil və mədəniyyət, 4 səhiyyə ocağı isə maye qazla qızdırılacaq. Qeyd olunub ki, Babək rayonunda 2014-2015-ci ilin payız-qış mövsümünü mütəşəkkil başa vurmaq üçün bir sıra məqsədyönlü işlər görülüb, Nehrəm, Cəhri, Şıxmahmud, Sirab, Zeynəddin, Məmmədrzadizə, Yuxarı və Aşağı Uzunoba, Nəzərabad, Didivar, Kərimbəyli, Çeşməbasar və Şəkərabad kənd mərkəzlərinin müasirtipli qazanxanalarla təchiz edilməsi nəticəsində bu sahədə vəziyyət xeyli yaxşılaşıb. Bundan əlavə, Babək rayonunda payız-qış mövsümündə istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Nehrəm, Cəhri, Sirab, Qahab, Didivar, Nəzərabad, Çeşməbasar, Vayxır, Yarımca, Xəlilli və Badaşqan kəndlərində 19 ədəd 10/0,4 kilovoltluq yarımstansiya təmir edilib, Babək qəsəbəsi də daxil olmaqla, 26 kənddə 334 ədəd yeni dirək basdırılıb, 289 ədəd elektrik dirəyinə isə yeni dayaqlar bərkidilib, rayon mərkəzində və 9 kənddə 13 min 430 metr məsafədə yararsız məftillər yenisi ilə əvəz edilib.

"Payız-qış mövsümündə istehlakçıların təbii qaz təminatı da diqqət mərkəzində saxlanılıb, rayon Qaz İstismarı İdarəsi tərəfindən yeni tikilmiş 109 evə qaz xətti çəkilib, korroziyaya uğrayaraq sıradan çıxmış 1420 metr müxtəlif diametrli qaz xətləri yenisi ilə əvəz edilib, 549 sızma hadisəsi aradan qaldırılıb, orta və aşağıtəzyiqli boru xətlərində isə nasazlıqlar təmir edilib", – deyən icra başçısının sözlərinə görə, qaz itkisinin qarşısını almaq məqsədilə Qahab, Naxışnərgiz, Məzrə, Kalbaorucdizə, Qaraqala, Məmmədrzadizə, Kərimbəyli, Kültəpə, Sirab, Zeynəddin, Nəcəfalıdizə, Yarımca, Badaşqan, Hacıvar, Şəkərabad, Vayxır, Xalxal, Çeşməbasar və Güznüt kəndlərində istismar müddəti başa çatmış 3856 ədəd sayğac yenisi ilə əvəz edilib və hazırda bu iş davam etdirilir.

Rayonda rabitə sahəsində görülən işlərdən də danışan Elçin Hüseynəliyev bildirib ki, mövsümə hazırlıqla bağlı rabitə xətlərinə baxış keçirilib, 125 ədəd yeni dəmir dirək basdırılıb, 12,5 kilometr uzunluğunda müxtəliftutumlu kabel çəkilib, 3,5 kilometr məsafədə kabel yer altına salınıb, 760 metr məsafədə isə rabitə xətlərinin yerləri dəyişdirilib.

Tədbirdə Babək Rayon Elektrik Şəbəkəsinin direktoru vəzifəsini icra edən Elmar Əzimovun, Qaz İstismarı İdarəsinin rəisi Vüqar Quliyevin və Təhsil Şöbəsinin müdiri Kamil Kazımovun çıxışları olub.

* * *

*Ordubad Rayon İcra Hakimiyyətində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq payız-qış mövsümünə hazırlıqla bağlı məruzə ilə çıxış edib.*

Bildirilib ki, 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar Ordubad rayonunda bir sıra işlər görülüb. Belə ki, payız-qış mövsümündə rayon sakinlərini elektrik enerjisi və təbii qazla fasiləsiz təmin etmək məqsədilə rayon Elektrik Şəbəkəsi və Qaz İstismarı İdarəsinə lazım olan hər cür material verilib. Rayon üzrə bu ilin payız-qış mövsümündə yeni tikililərlə birlikdə 73 müasirtipli qazanxana fəaliyyət göstərəcək. O cümlədən 9 qazanxana vasitəsilə 15 binada 414 mənzil istiliklə təmin olunacaq. Həmçinin təhsil müəssisələri üzrə 25, mədəniyyət sahəsi üzrə 5, idarə, müəssisə və təşkilatlar üzrə isə 34 qazanxana fəaliyyət göstərəcək. Ümumilikdə, həmin qazanxanaların hamısı işlək vəziyyətdədir və qazanxanaların texniki təhlükəsizliyi təmin edilib.



Qeyd olunub ki, rayonun təhsil, səhiyyə, mədəniyyət və digər müəssisələrində payız-qış mövsümü ilə əlaqədar binalarda əsaslı və cari təmir işləri aparılıb. Bu il rayondakı 43 təhsil müəssisəsindən 25-i qazanxana, 17-si isə neft sobası ilə qızdırılacaq. Rayon Rabitə İdarəsində 2014-2015-ci ilin payız-qış mövsümü ilə əlaqədar akkumulyator batareyaları yenisi ilə əvəz edilib, xətt təsərrüfatına baxış keçirilib, müxtəliftutumlu kabellər və yararsız dayaqlar yeniləri ilə əvəz olunub. Bundan əlavə, ATS-lərin fasiləsiz fəaliyyəti üçün yanacaq ehtiyatı əldə edilib, generatorlara texniki baxış keçirilib, nasaz generatorlar təmir edilib, bir generator yenisi ilə əvəzlənib.

Sonra icra başçısı qarşıda duran vəzifələrdən danışıb.

Məruzə ətrafında Ordubad Rayon Elektrik Şəbəkəsinin direktoru Ramazan Rzayevin, Qaz İstismarı İdarəsinin rəisi Tural Əzimovun, Təhsil Şöbəsinin müdir əvəzi Elvin Məmmədovun, Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyevin çıxışları olub.

Müşavirəyə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov yekun vurub.

* * *

*Dünən Şahbuz Rayon İcra Hakimiyyətində də 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla bağlı görülmüş işlər və qarşıda duran vəzifələrə dair müşavirə keçirilib.*



Yığıncağı rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, rayonda fəaliyyət göstərən təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin, həmçinin əhalinin payız-qış mövsümündə enerji və istiliklə fasiləsiz təmin olunması, inzibati binaların, kəndlərarası yolların təmiri diqqət mərkəzində saxlanılıb, rayon mərkəzində və kənd yaşayış məntəqələrində müasir istilik sistemi ilə təmin edilmiş inzibati binaların qazanxanalarının mövsümə hazırlanması istiqamətində tədbirlər həyata keçirilib. Vurğulanıb ki, rayon mərkəzində fəaliyyət göstərən 42 idarə, təşkilat və müəssisənin yerləşdiyi inzibati binalardan 32-də müasir istilik sistemi qurulub. Şahbuz rayonunun 21 yaşayış məntəqəsində fəaliyyət göstərən xidmət müəssisələrinin yerləşdikləri binalar, həmçinin mövsüməm istifadəyə veriləcək Gömür və Nursu kəndlərindəki tam orta məktəb binaları, kənd və xidmət mərkəzlərinin yerləşdikləri binalar müasir istilik sistemləri ilə qızdırılacaq. Hazırda Gömür və Nursu kəndlərindəki obyektlərin tikintisinin vaxtında başa çatdırılması məqsədilə lazımi tədbirlər həyata keçirilir.

İcra başçısının sözlərinə görə, muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərindən Şahbuz rayonuna da xeyli pay düşməsinin nəticəsidir ki, Şahbuz şəhərində bütün ictimai yaşayış binaları əsaslı surətdə təmir edilib, hər bir ictimai yaşayış binasının qış mövsümünə hazırlığı ilə bağlı kommunikasiya xətlərinə baxış keçirilib, nasazlıqlar aradan qaldırılıb.

2014-2015-ci ilin payız-qış mövsümündə nəqliyyatın normal hərəkəti üçün görülmüş işlərdən də danışan Nurəddin Quliyev qeyd edib ki, kəndlərarası avtomobil yolları təmir edilib. Uzunluğu 18 kilometrdən çox olan Şahbuz-Keçili avtomobil yolunun sıradan çıxmış hissələrinə asfalt-beton örtük salınaraq bərpa edilib. Avtomobil yollarının xüsusilə payız mövsümündə sel sularından qorunması məqsədilə Yuxarı Qışlaq kəndində uzunluğu 140, hündürlüyü 2 metr, Aşağı Qışlaq kəndində uzunluğu 43, hündürlüyü 2 metr olan istinad divarları çəkilib, Şahbuz şəhərində dərə selovunun üzərində iki yerdə uzunluğu 12 metr olan mənfəz tikilib.

Rayon sakinlərinin payız-qış mövsümündə də elektrik enerjisinə olan tələbatını tam ödəmək məqsədilə 2014-cü ilin ötən dövrü ərzində 8 ədəd transformator təmir olunaraq istismara qaytarılıb, 156 ədəd dayaq dəyişdirilib, istismar müddəti başa çatmış naqillər yeniləri ilə əvəz olunub.

"Əhalinin qış mövsümündə içməli su təminatını yaxşılaşdırmaq məqsədilə Batabat su xəttində lazımi təmir işləri aparılıb, Şahbuz şəhərinə yeni içməli su xəttinin çəkilməsi və kanalizasiya sisteminin ən müasir formada qurulması üçün tikinti işləri davam etdirilir", – deyən məruzəçi qarşıda duran vəzifələrdən də danışıb. Bildirilib ki, payız-qış mövsümündə istehlakçıları normal elektrik enerjisi və təbii qazla təmin etmək məqsədilə köhnə, nasaz elektrik və qaz xətlərinin bərpasına, işçilərin payız-qış mövsümündə isti geyim və təhlükəsizlik avadanlıqları ilə təminatına ciddi diqqət yetirilməlidir. Bundan başqa, qarşıdan gələn payız-qış mövsümündə əhaliyə göstərilən nəqliyyat xidmətlərində fasilələrə yol verilməməsi üçün avtobus və mikroavtobusların texniki sazlığı nəzarətdə saxlanmalı, hərəkətin qrafikə uyğun olaraq fəaliyyəti təmin edilməli, bununla bağlı əməli tədbirlər həyata keçirilməlidir.

Sonra məruzə ətrafında Şahbuz Rayon Elektrik Şəbəkəsinin direktoru Tural Quliyevin, Qaz İstismarı İdarəsinin rəisi Anar Hüseynovun, Rabitə İdarəsinin rəisi Fazil Umudovun və Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Xanlar Səfərəliyevin çıxışları olub.

Tədbirə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev yekun vurub.

**Xəbərlər şöbəsi**

# İnkişafın başlıca amili: hərtərəfli dövlət qayğısı

## *Bunu Babək rayonunun timsalında bütün çalarları ilə görmək mümkündür*

*Babək rayonu 1978-ci il oktyabrın 23-də ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb.*

*Ötən dövr ərzində Babək rayonu hərtərəfli qayğı ilə əhatə olunub, sürətli inkişaf yolu keçib. Rayon mərkəzi, kənd yaşayış məntəqələri muxtar respublikada həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, reallaşdırılan böyük layihələr hesabına öz simasını tamamilə dəyişib, Babək müasir Azərbaycan rayonuna çevrilib. Babək rayonu 2014-cü ilin birinci yarısını da böyük nailiyyətlərlə başa vurub. Həmin nailiyyətlərin arxasında dayanan başlıca amil insana qayğı olub. Bu yazını hazırlayarkən rayon sakinləri ilə həmsöhbət olduq. Onlar da yaradılan şəraitdən razılıqlarını bildirdilər. Sakinlərin söhbətini bir qədər sonra sizə təqdim edəcəyik.*




### *Yeni quruculuq ünvanları*

Məlumat üçün bildirək ki, 2014-cü ilin birinci yarısında rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 32 milyon 767,5 min manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunan investisiyanın həcmi 31 milyon 231,9 min manat təşkil edib. Bəhs olunan dövrdə 13 yaşayış məntəqəsini əhatə edən Hacıvar-Vayxır-Sirab avtomobil yolu yüksək keyfiyyətlə yenidən qurularaq istifadəyə verilib. Babək qəsəbəsində rayon mərkəzi xəstəxanası və uşaq bağçası üçün yeni binalar tikilib. Həmin obyektlər müasir avadanlıqlarla təmin olunub, onların yerləşdikləri ərazilər abadlaşdırılıb. Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binası yenidən qurularaq müasir görkəmə gətirilib.

Cəhri kəndində sahə xəstəxanasının, 1 nömrəli tam orta məktəbin binaları yenidən qurularaq, xidmət mərkəzi üçün yeni bina tikilərək istifadəyə verilib. Həmin yaşayış məntəqəsində 2,8 kilometr uzunluğunda kənddaxili yola asfalt örtük salınıb. 1200 metr uzunluğunda qapalı drenaj xətti çəkilib, 2020 metr uzunluğunda içməli su xəttində təmir-bərpa işləri aparılıb. Əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə mövcud avtomat telefon stansiyası 1024 yerlik yeni nəsil avtomat telefon stansiyası ilə əvəz edilib, Cəhri və Gülşənabad kəndlərini əhatə edən 256 nömrəlik yeni nəsil avtomat telefon stansiyası quraşdırılıb.

Hazırda Babək qəsəbəsində rayon Rabitə İdarəsi üçün yeni bina tikilir. Bu quruculuq tədbiri “Dizayn İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən həyata keçirilir. Obyektdə yaradılan şərait hesabına ötən müddət ərzində xeyli inşaat işi görülüb. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada dəmir-qəlib, zirzəmidə hörgü, suvaq və alçı işləri başa çatdırılıb. Həmin işlər hazırda birinci mərtəbədə davam etdirilir. İkinci və üçüncü mərtəbələrdə hörgü işləri aparılır.

Adıçəkilən tikinti təşkilatının bir qrup inşaatçısı Nehrəm kənd 2 nömrəli tam orta məktəb binasının yenidən qurulması ilə məşğuldur. Yeni layihəyə əsasən, zirzəmi ilə birlikdə 3 mərtəbə nəzərdə tutulmuş binaya 2 korpus əlavə edilir.

Güznüt kəndində də həyata keçirilən kompleks quruculuq tədbirləri sürətlə davam etdirilir. Həmin tədbirlər “Naxçıvan Əcəmi Tikinti-Quraşdırma” Açıq Səhmdar Cəmiyyətinin inşaatçılarına həvalə edilib. İş icraçısı Adil Baxşəliyevdən aldığımız məlumata görə, bu yaşayış məntəqəsində kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzi üçün binalar inşa edilir. İki mərtəbədən ibarət olacaq kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana və mədəniyyət evi fəaliyyət göstərəcək. Obyektdə tikinti işləri əsasən başa çatdırılıb.



Həkim ambulatoriyası üçün inşa edilən bina da 2 mərtəbədən ibarətdir. Kənd sakinlərinə böyük dövlət qayğısının daha bir ifadəsi olan bu obyektin inşasında da keyfiyyət amilinə ciddi diqqət yetirilir.

Yeni obyektlər sırasında 1 mərtəbədən ibarət xidmət mərkəzi də var. Hər 3 obyektin inşası başa çatdırıldıqdan sonra ərazi abadlaşdırılacaq, yaşıllıq zolaqları, gülkarlıqlar salınacaq.

Kənd tam orta məktəbinin binası da yenidən qurulur. Qısa müddət ərzində burada qapılar və istilik sistemi dəyişdirilib, döşəmə-tavan yenilənib. Hazırda su xətti yenisi ilə əvəzlənir, həyətyanı sahə genişləndirilir.

Quruculuq tədbirlərindən Qoşadizə kəndinə də pay düşüb. Adıçəkilən tikinti təşkilatının inşaatçıları tərəfindən bu yaşayış məntəqəsində 2 mərtəbədən ibarət kənd mərkəzi, 1 mərtəbədən ibarət xidmət mərkəzi inşa olunur. Kənd tam orta məktəbinin binası yenidən qurulur. İndiyədək ikimərtəbəli olan məktəb binasına 1 mərtəbə də əlavə edilib. Həmçinin mövcud korpuslardan biri sökülərək yenidən tikilir. Həmin korpus zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq.

Rayonun Qahab kəndində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası üçün yeni binalar tikilir, kənd tam orta məktəb binası isə yenidən qurulur. Naxışnərgizdə isə kənd mərkəzi və məktəb üçün yeni binalar inşa edilir.

Rayonun yol təsərrüfatında da quruculuq işləri sürətlə davam etdirilir. Babək qəsəbə-Qoşadizə-Naxçıvan Beynəlxalq Hava Limanını birləşdirən yol genişləndirilir, Yarımca-Qahab-Naxışnərgiz avtomobil yolunun tikintisi aparılır.

Göründüyü kimi, “Muxtariyyət ili”ndə muxtar respublikamızın digər bölgələri kimi, Babək rayonunda da xeyli quruculuq tədbirləri həyata keçirilib və bu işlər davam etdirilməkdədir. Bütün bunları babəklilər regionumuzda davamlı xarakter almış sosial-iqtisadi inkişafın yeni bəhrələri kimi dəyərləndirirlər.

### *İqtisadiyyatın inkişafı insanların rifah halını yaxşılaşdırıb*

Muxtar respublikanın ən böyük bölgələrindən olan Babək rayonunda iqtisadiyyatın inkişafı bu gün ən yüksək önəm verilən sahələrdən biridir. Çünki hər bir babəkli öz həyat səviyyəsinin yaxşılaşmasını iqtisadiyyatın inkişafında görür, dövlətimizin yaratdığı şəraitdən istifadə edərək məhsul bolluğu yaradılmasına çalışır. Bir neçə statistik rəqəmə diqqət yetirsək, babəklilərin çəkdikləri zəhmətin hədər getmədiyini görərik. Bəhs olunan dövrdə 15 min 664 hektar sahədə əkin aparılıb. Əkin sahəsinin 351 hektarını kartof, 1932 hektarını tərəvəz bitkiləri, 1505 hektarını bostan, 10 min 531,8 hektarını dənli və dənli-paxlalı bitkilər, 91 hektarını qarğıdalı, 85 hektarını günəbaxan, 711 hektarını cari ildə əkilmiş çoxillik ot, 457,2 hektarını isə ötən illərdə əkilmiş çoxillik ot təşkil edir.

Bölgədə daha çox inkişaf etdirilən əkinçilik sahələrindən biri taxılçılıqdır. Ötən ilin payızında və cari ilin yazında 2014-cü ilin məhsulu üçün torpaq mülkiyyətçiləri 10364,8 hektar sahədə taxıl əkiblər. Bunun 7777,8 hektarı buğda, 2587 hektarı arpa olub. Bu sahə ilə məşğul olanların müxtəlif dövlət yardımları, kreditlər, məhsuldar toxum sortları, texnika, suvarma suyu ilə təchizatı diqqət mərkəzində saxlanılıb, sahələrə aqrotexniki qaydalar əsasında qulluq edilməsinə şərait yaradılıb. Çəkilən zəhmət isə Babək taxılçılarının xeyli gəlir əldə etmələrinə imkan verib. Sahələrdən 31725 ton məhsul götürülüb ki, bunun da 24164 tonu buğda, 7561 tonu arpadır. Hektarın orta məhsuldarlığı 30,6 sentner təşkil edib. 2014-cü ilin nəticələri babəkliləri 2015-ci ilin bol məhsulunun əsasını qoymağa bir daha ruhlandırıb. Onlar payızlıq taxıl əkinini optimal müddətdə başa çatdırmağa çalışırlar.

Bölgədə ciddi önəm verilən sahələrdən biri də kartofçuluqdur. İlin ilk 6 ayı ərzində 351 hektar kartof əkini sahəsinin 16 hektarından 198 ton kartof tədarük edilib. Rayon əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatını daxili imkanlar hesabına ödəmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” bu sahədə zəruri tədbirlərin həyata keçirilməsini təmin edib. Bölgənin torpaq mülkiyyətçiləri həm öz tələbatlarını ödəmək, həm də daxili bazara töhfələrini vermək üçün səylərini artıraraq uğurlu nəticələr qazanıblar. Barverən meyvə bağlarından 1038 ton meyvə, 1932 hektar tərəvəz əkini sahəsinin 30 hektarından 310 ton məhsul tədarük edilib. Aqrar sahədə qazanılan bütün bu uğurlar belə deməyə əsas verir ki, babəklilər ən qiymətli sərvət olan torpağı özlərinin daimi iş yerinə çeviriblər.

* * *

Rayonda insanlara xeyli gəlir gətirən sahələrdən biri də heyvandarlıqdır. Neçə illərdir ki, bu sahəyə qayğı hesabına babəklilər öz tələbatlarını uyğun ət, süd və süd məhsulları istehsal etməklə yanaşı, muxtar respublikanın daxili bazarına da töhfələrini verirlər. Rayonda 8378 baş iribuynuzlu, 146 min 450 baş xırdabuynuzlu heyvan saxlanılır. Hər il heyvanların baş sayının artırılması qayğısına qalınır. Ona görə də bu sahə ilə məşğul olanlara kreditlər verilir. Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə baytarlıq xidmətinin səviyyəsi yüksəldilir. Bu da babəklilərin heyvandarlığa marağının artmasında mühüm rol oynayır. Bəhs olunan dövrdə rayonda diri çəkidə 1305 ton ət, 7265 ton süd istehsal edilib.

Məlumat üçün bildirək ki, cari ilin ilk 6 ayında da torpaq mülkiyyətçilərinə müxtəlif yardımlar olunub. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 1 nəfərə taxılçılığın, 6 nəfərə kartofçuluğun, 1 nəfərə meyvəçiliyin, 57 nəfərə heyvandarlığın, 13 nəfərə arıçılığın, 1 nəfərə quşçuluğun inkişafı, 16 nəfərə bostan məhsullarının əkini üçün, ümumilikdə, 272 min 800 manat kredit verilib.

### *Rayonun bütün təşkilatları “Muxtariyyət ili”nə töhfələrini verməyə çalışıblar və ya babəklilərin ürək sözləri*

Bəhs olunan dövrdə rayonun bütün təşkilatları öz fəaliyyətlərini qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində qurublar. Əhaliyə verilən elektrik enerjisinin davamlılığını təmin etmək üçün xətlərdə cari və əsaslı təmir işləri aparılıb. 307 yeni dayaq basdırılıb. 12 min 280 metr yeni elektrik xətti çəkilib. Altı yeni transformator yarımstansiyası quraşdırılıb, 6 transformator yenisi ilə əvəz olunub. Qaz təsərrüfatında da görülən işlər insanların məişət şəraitinin yaxşılaşdırılmasına yönəlib. 2540 ədəd sayğac yenisi ilə əvəz edilib, 87 mənzilə qaz xətti çəkilib. Bəhs olunan dövrdə 191 yeni abonentə telefon xətti, 403 abonentə isə genişzolaqlı internet xətti çəkilib. İlin birinci yarısında rayonda ətraf mühitin mühafizəsinə, ekoloji tarazlığın qorunmasına diqqət daha da artırılıb. 12 hektar sahədə meşəbərpa işləri aparılıb, 3 hektar sahədə yeni meyvə bağı salınıb, 2100 ədəd müxtəlif meyvə ağacları əkilib. Bu vəzifələrin yerinə yetirilməsi bəhrələrini verib.

Babəklilər bu bəhrələri həyat və yaşayış səviyyələrində hər an görürlər. Onlar rayonda keçirilən tədbirlərdə fəallıq nümayiş etdirir, bunu özlərinin vətəndaşlıq borcu hesab edirlər. Çünki görülən işlərin onlar üçün olduğunu dərindən başa düşürlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Əməkdar həkim Hüseyn Niftəliyev:

– O yerdə insanın yaşamaq, qurub-yaratmaq əzmi yüksək olur ki, orada insan hərtərəfli qayğı görür. Bu gün fəxrlə demək olar ki, rayon sakinlərində belə əzmkarlıq yüksək səviyyədədir. Sevinirik ki, rayonumuz sürətlə inkişaf edir. Burada yeni emal və istehsal müəssisələri açılır, iş yerləri yaradılır. Bu da əhalinin məşğulluğunun təmin olunmasında, daxili bazarda yerli məhsulların xüsusi çəkisinin artırılmasında mühüm əhəmiyyət kəsb edir. Rayonda sahibkarlığın inkişafına geniş meydan verilməsinin nəticəsidir ki, onlarla emal, istehsal və xidmət müəssisəsi fəaliyyət göstərir.

Babək Rayon Ekoloji Tərbiyə Mərkəzinin direktoru Ramiz Babayev:

– Muxtar respublikamızda bu gün həyatımızın elə bir sahəsi yoxdur ki, böyük uğurlar qazanılmasın, yüksək nəticələrə nail olunmasın. Babək rayonu da hərtərəfli dövlət qayğısı hesabına günü-gündən gözəlləşməkdədir. Hər il rayonun müxtəlif ünvanlarında geniş yollar salınır, fərdi yaşayış evləri tikilir. Son illər yaşıllıq sahələrinin genişləndirilməsinə diqqət daha da artıb. Müasir işıqlandırma sistemi rayon mərkəzinin gecəsini gündüzə çevirib.

Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Fatma Bağırova:

– Babək rayonu bu gün muxtar respublikanın digər bölgələri kimi sürətlə inkişaf edir, füsunkar gözəlliyə qovuşur. Bu gözəlliyin asanlıqla başa gəlmədiyini bilirik. Ona görə də hər bir sənət və peşə adamı səy və bacarığını əsirgəməyərək çalışdığı sahədə böyük uğurlara nail olmalı, göstərilən qayğıya əməli işlə cavab verməlidir. Elə bunun üçün də hər cür imkanlarımız var. Bu imkanlardan səmərəli istifadə edən insanlar rayonumuzun, muxtar respublikamızın, nəticə etibarı ilə, ölkəmizin inkişafına töhfələrini vermiş olacaqlar.

### *Qarşıdakı dövrdə görülən işlərin həcmi daha çox olacaq*

*Dünya yaranandan hər açılan sabah həyatın davam etdiyinin göstəricisi olub. Babək rayonunda da hər açılan sabah bir yeniliklə müşahidə edilir. Elə ilin ilk 6 ayında qısaca bəhs etdiyimiz yeniliklər “Muxtariyyət ili”nin Babək rayonuna töhfələridir. Bu yeniliyi yaradanlar Babəkin müasir tarixinə öz imzasını yazan insanlardır. Odur ki, onların əməyi öz yurdunu qəlbən sevən, yaşadıqları yurd yerinin sabah daha gözəl olacağına inanan babəklilər tərəfindən yüksək dəyərləndirilir. Onlar görürlər ki, təşəbbüskarlıq, sabaha cavabdehlik və tapşırılan vəzifəyə məsuliyyət hissi vətəndaşlıq borcuna çevrilən yerdə hər şeyə nail olmaq mümkündür. Bu isə belə deməyə əsas verir ki, qarşıdakı dövrdə Babək rayonunda görülən işlərin həcmi daha çox olacaq, bölgə sakinləri 2014-cü ili böyük uğurlarla başa vuracaqlar.*

**Muxtar MƏMMƏDOV**

# Müstəqillik illərində Naxçıvan şairlərinin yaradıcılığında Naxçıvan və Vətən mövzusu

***Naxçıvan ədəbi mühiti Azərbaycan ədəbiyyatına, elminə, mədəniyyətinə bir çox sanballı şəxsiyyətlər, elm xadimləri, yazıçılar, ədəbiyyatşünaslar bəxş etmişdir. Həmçinin Naxçıvan mühitini formalaşdıran bu şəxsiyyətlər mühitin inkişafında misilsiz rol oynamışlar. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranan maarifçilik ideyalarının reallaşdırılması bu dövr Naxçıvan ədəbi mühitini formalaşdıran sənətkarlarımızın və maarifçi yazıçılarımızın məqsədinə çevrilmişdir. Məhəmməd Tağı Sidqi, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Hüseyn Cavid bu amal uğrunda mübarizə aparan sənətkarlardır. Müstəqillik illərində Naxçıvan böyük inkişaf yolu keçmiş, Azərbaycanın elm, mədəniyyət, maarif və sənaye mərkəzinə çevrilmişdir. Bu illərdə Naxçıvanda, hər sahədə olduğu kimi, mədəni sahədə də yüksək inkişaf müşahidə olunmaqdadır. Bu inkişaf mühitin ziyalı və şairlərinin yaradıcılığında da özünü göstərir. Naxçıvan ədəbi mühitində yazıb-yaradan sənətkarların əsərlərində müstəqillik və vətənpərvərlik ideyalarının ön plana çıxması dediklərimizi sübut etməkdədir.***

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında Ali Məclisin Sədri cənab Vasif Talıbov çıxış edərək demişdir: ***"Hər bir xalqın həyatında ədəbiyyatın, bədii söz sənətinin mühüm yeri və rolu vardır... Ədəbiyyatın ən böyük amalını və tarixi missiyasını mənsub olduğu xalqa xidmətdə görən ümummilli liderimiz hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan ədəbiyyatının inkişafına çalışmış, yaradıcı ziyalıları himayə etmiş, sağlam ədəbi mühitin yaradılmasını bir nömrəli vəzifələr sırasına çəkmişdir".***

***"Müstəqillik dövrünün özünəməxsus ədəbiyyatı olmalıdır"***, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, "bu dövr əvvəlki dövrlərdən tamamilə fərqlənir. Əsas fərq bundan ibarətdir ki, Sovetlər Birliyi dövründəki kimi indi ədəbiyyatın üzərində senzura yoxdur. Müxtəlif mövzular üzrə dövlət sifarişləri aradan qaldırılmış, mövzu seçimində tam sərbəstlik verilmişdir. İkinci fərq budur ki, bu gün bədii yaradıcılıqda "Vətən" anlayışı öz real məzmununa qovuşmuş, Azərbaycan müstəqil dövlət olmuşdur. Əgər əvvəllər şair və ya yazıçı "Vətən" deyərkən fikrində xəyali sərhədlər cızır və ya keçmiş Sovetlər Birliyini nəzərdə tuturdusa, bu gün real sərhədlər hüdudunda müstəqil Azərbaycanımız – öz doğma Vətənimiz mövcuddur".

Ali Məclisin Sədri həmçinin qeyd etmişdir: ***"Bəzən polemika açılır ki, müstəqillik dövrünün ədəbiyyatı necə olmalıdır? Bu dövrün ədəbiyyatı, birinci növbədə, vətənpərvər ədəbiyyat olmalıdır. Ədəbi məhsullarda "Vətən" sözünü çox işlətməklə vətənpərvərlik mövzusunda ədəbiyyat yaratmaq mümkün deyil. Vətənpərvərlik yazıçı və ya şairin yaradıcılığının bütün mahiyyətini ifadə etməli, vətəndaşlıq duyğusunun daşıyıcısına çevrilməlidir".***

Yaradıcılığının bütün mahiyyətini Azərbaycançılıq, vətənpərvərlik, Vətənə sevgi motivləri üzərində quran istedadlı sənətkarımız Məmməd Araz belə söz ustadlarından idi. Onun "Bizi Vətən çağırır" (1992), "Ayağa dur, Azərbaycan" (1992), "Ata millət, Ana millət, ağlama" (1992) kimi şeirləri bu qəbildəndir. Müstəqillik illərində yazıb-yaradan sənətkarların əsərlərinə diqqət etsək, görərik ki, onlar bu illərdə düşüncələrini, dərdlərini, tələblərini, arzularını aşkar ifadə edə biliblər.

Azərbaycanın müstəqillik uğrunda mübarizəsi və müstəqillikdən sonra keçdiyi uğurlu yol, Vətənin tərənnümü poeziyamızın əsas mövzusuna çevrilmişdir.

Naxçıvanda yazıb-yaradan Hüseyn Razi də Naxçıvanın, həmçinin ölkəmizin ədəbi-mədəni və ictimai həyatında fəal iştirak etmiş, onun bu mövzularda şeirlər çap olunmuşdur. 1980-1990-cı illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr də Hüseyn Razi poeziyasında öz əksini tapmışdır. Ömrünün son illərində sanki əvvəllər yaza bilmədiklərini söyləməyə fürsət tapan Hüseyn Razi bu şeirlərinin çoxunu son kitabı "Gözün aydın"da toplamışdır:

*Başqa səfası var bu yerdə yazın,*
*Gur Arpa çayının, sakit Arazın,*
*Əsrlər keçsə də, əcdadımızın*
*Minbir nişanəsi Naxçıvandadır.*

Yaxud Muxtar Qasımzadənin "Əshabi-Kəhf", "Oğlan qala, qız qala", "Duz saray", "Əlincə", "Gülüstan", "Bəkir oğlu Əcəmi", "Babək qalası", "Cavidin məqbərəsi önündə düşüncələr" və digər şeirləri, xüsusilə "Gəmiqaya" poeması Azərbaycanımızın, həmçinin qədim Naxçıvanımızın məşhur tarixi və mədəniyyət abidələrinin şan-şöhrətinin tərənnüm və vəsfinə həsr olunmuşdur:

*Qorunub həmişə Yer kürəsində,*
*Yaşayır hər kəsin öz nəfəsində.*
*Ürəyin məhəbbət xəritəsində,*
*Ən böyük dövlətdir Vətən sevgisi.*

Naxçıvanda öz bədii üslubu ilə tanınan şairlərdən biri də Asim Yadigardır. Onun "Azərbaycan bayrağı", "Azərbaycan dünyaya Günəş kimi doğacaq", "Hücum əmri ver mənə", "Döyüş havaları çaldırmalıyıq", "Darıxan məzarlar" və sair şeirlərində vətənpərvərlik ideyaları əsl vətəndaş yanğısı ilə təbliğ olunur:

*Vətəndir dünyada hər şeydən əzəl,*
*İlk sevgim, son sevgim, bu yurd, bu torpaq.*
*Məndən inciməsin sevdiyim gözəl,*
*Vətəni sevmişəm mən ondan qabaq.*

Bədii yaradıcılığının əsasını Naxçıvan mövzusu təşkil edən sənətkarlardan biri də Elman Həbib olmuşdur. "Vətən olsa, biz varıq, Vətən yoxsa, biz heç nə!", – deyən sənətkar, Azərbaycanın keçmişi, bu günü haqqında yazdığı şeirlərində vətənpərvər şair kimi çıxış etmişdir:

*Qədiməm, uluyam, dünyaya tayam...*
*Qərbdən Şərqə kimi mən odam, suyam.*
*Bir canda yaşayan o tay, bu tayam.*
*Bir eləm, bir ürək, bir qəlbəm, canam...*
*Mən Azərbaycanam, Azərbaycanam.*

Naxçıvanın bugünkü inkişafını, tərəqqisini özündə əks etdirən şeirləri ilə müasir Naxçıvan ədəbi mühitində tanınan şairlərdən biri də İbrahim Yusifoğludur.

*Gəzirəm qoynunu hey qarış-qarış,*
*Nura boyanırsan doğulanda dan.*
*Hər yanda yüksəliş, hər yanda yarış,*
*Bu nəğməm sənədir, doğma Naxçıvan!* –

bəndinin müəllifi şeirlərində Naxçıvanın tərəqqisini, yüksəlişini rəssam ustalığı ilə təsvir etmişdir.

Naxçıvan ədəbi mühitində öz sözünü deməyi bacaran Vaqif Məmmədovun "Vətən sığır ürəyimə" şerində isə Vətənə, millətə olan sonsuz sevgi, sonsuz məhəbbət hissləri oxucunu riqqətə gətirir, onu Vətənin vətəndaşı olmağa çağırır:

*Ürəyimsiz ağlamıram, gülmürəm,*
*Hər istəyim ürəyimdə birləşir.*
*Böyükmüdür, kiçikmidir bilmirəm,*
*Ürəyimə təkcə Vətən yerləşir...*

"Azərbaycan", "Azərbaycan bayrağı", "Harda Azərbaycan bayrağı qalxsa", "Naxçıvanım mənim", "Xalqım" və sair şeirlərində Vətəni tərənnüm edən şairimiz Xanəli Kərimli bu şeirlərində Azərbaycanın keçdiyi keşməkəşli yolu sənətkarlıqla təsvir etməyi bacarmışdır. Onun "Naxçıvanım mənim" şeri də bu baxımdan diqqət çəkir:

*Naxçıvanım – şanım mənim!*
*Qəlbimin şah damarında*
*Axan təmiz qanım mənim!*
*İftixarım, şərafətim,*
*Basılmaz ad-sanım mənim!*

Gənc şair Elxan Yurdoğlunun "Sən sevgilim, sən anamsan" adlı şerində isə Naxçıvanın keçmişi, bu günü, gələcəyi özünəməxsus üslubda təsvir olunmuşdur. Nuhun diyarı Naxçıvanın tarixin sınaqlarına sinə gərməsi və bu sınaqlardan üzüağ çıxması şairin bu şerinin ana xəttini təşkil edir:

*Sən ki mənim Nuh babamın*
*Süfrəsinə duz vermisən.*
*Danışanda susub tarix –*
*Tarixə sən söz vermisən.*
*Bütün əyri sualların*
*Cavabını düz vermisən,*
*Öndən gedib iz açmısan,*
*Arxanca yeriyib zaman,*
*Naxçıvan!*

***Dahilər yurdu Naxçıvan tarixin sınaqlarına mətanətlə sinə gərən ulu torpaqdır. Naxçıvanın keçmişi kimi, gələcəyi də şanlı yazılır; günbəgün inkişaf edən Naxçıvan ulduz kimi parlayır.***

**Nərgiz İSMAYILOVA**

*Gəncliyimiz, gələcəyimiz*

# Tələbə adının sevinci



Sürətlə inkişaf edən muxtar respublikamızın təhsil ocaqlarının göstəriciləri ölkə miqyasında seçilməkdə, ali məktəblərə qəbulun səviyyəsi ilbəil artmaqdadır. Nailiyyətlərin təməlində isə, heç şübhəsiz ki, təhsilə göstərilən dövlət qayğısı, təhsil ocaqları üçün yeni-yeni binaların inşa olunması, məktəblərimizin maddi-texniki bazasının gücləndirilməsi, bu işdə böyük fədakarlıq göstərən müəllimlərimizin əməyinin layiqincə qiymətləndirilməsi dayanır. Son 10 ildə muxtar respublikada 56 min 926 şagird yerlik 142 məktəb binası tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Ümumtəhsil məktəblərinə 3409 kompüter dəsti verilib, hər 12 şagird bir kompüterlə təmin olunub. Təhsil müəssisələrindəki kompüterlərin 84 faizi internetə qoşulub, 600-ə yaxın elektron lövhə quraşdırılıb. Bütün bunların nəticəsidir ki, təhsildə keyfiyyət göstəricisi ilbəil artır.

Ali məktəblərə qəbulun təhlilindən görürük ki, yüksək bal toplayanların sayı bu il də artıb. Əgər 2013-cü ildə tələbə adını qazananların 312-si 500-dən yuxarı bal toplamışdısa, 2014-cü ildə 347 abituriyent 500-700 intervalında yüksək nəticə göstərib. Builki qəbul imtahanlarında ən yüksək bal toplayan gənclərdən biri də Amil Qasımovdur. O, IV ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında 677 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin "müalicə işi" ixtisasına qəbul olunub. Bu istedadlı gənclə görüşdük və onunla qəbul imtahanında qazandığı uğurun sevincini bölüşdük.

Amili yüksək balla tələbə adı qazanması münasibətilə təbrik etdik. O dedi:

– Mən Kəngərli rayonunun Qarabağlar kəndində anadan olmuşam. Naxçıvan şəhərindəki 4 nömrəli tam orta məktəbi əla qiymətlərlə bitirmişəm. Uşaqlıqdan həkim olmaq ən böyük arzularımdan biri olub. Ona görə var gücümlə çalışaraq sevdiyim ixtisasın tələbəsi olmağı qarşıma məqsəd qoydum. Tələbə adını qazanmağımda dövlətimizin biz gənclərə göstərdiyi qayğını, yaradılmış şəraiti başlıca amil hesab edirəm.

Bu gün tələbə adını qazanmaq, məncə, heç də çətin deyil. Yaşadığımız dövr indiki gənclərdən yüksək bilik, intellektual səviyyə tələb edir. Bunlara nail olmaq üçün yaradılan şəraitdən düzgün və səmərəli istifadə etmək əsas şərtdir.

Amil onu da əlavə etdi ki:

– Bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşü məni daha çox sevindirdi. Hələ məktəbdə oxuduğum illərdə məktəbimizin məzunlarının belə görüşlərdə iştirak etmələrini eşidirdim və bu görüşün mənə də qismət olmasını arzulayırdım. Yaradılan şəraitdən var gücümlə istifadə edərək bu arzuma çatdım. Görüşdə Ali Məclis Sədrinin dediyi bu sözlər yaddaşımdan silinməyəcək: ***"...Yaxşı təhsil almadan intellektual səviyyəni yüksəltmək, kamil mütəxəssis və əsl vətəndaş kimi yetişmək mümkün deyil. Öz üzərinizdə daim işləməli, mütaliə etməlisiniz. İnformasiya texnologiyalarının sirlərinə dərindən bələd olmalı, müasir elmi-texniki yenilikləri öyrənməlisiniz. Bu gün gəncliyin təhsildə əsas missiyası istənilən sahə üzrə mütəxəssis kimi yetişmək, Vətən üçün, xalq üçün faydalı olmaqdır. Çalışmaq lazımdır ki, verilən təhsil yalnız qazanılmış biliklə məhdudlaşmasın. Gənclər öz dünyagörüşlərini inkişaf etdirməli, milli və ümumbəşəri dəyərləri, xalqımıza məxsus adət-ənənələri mənimsəməlidirlər. Müasir həyat insanlardan daha çox bilik və təcrübə tələb edir. Ona görə də siz təhsil almaqla yanaşı, həm də seçdiyiniz sahə üzrə yaxşı mütəxəssis kimi yetişməli, özünüzü cəmiyyət üçün hazırlamalısınız. Hansı sahədə işləməyinizdən və harada yaşamağınızdan asılı olmayaraq, daim doğma Azərbaycanımıza sədaqətli olun!"***

**Sara ƏZİMOVA**

# Əhalinin hüquqi maarifləndirilməsi ilə bağlı tədbir keçirilib

***Avqustun 13-də Ordubad Rayon Prokurorluğu rayonun Yuxarı Əylis kəndində maarifləndirici tədbir keçirib.***

Tədbirdə Ordubad rayon prokuroru, baş ədliyyə müşaviri Yusif Abdullayev "Enerji ehtiyatlarından qənaətlə istifadə olunmalıdır" mövzusunda çıxış edib.

Bildirilib ki, ölkəmizin digər regionları kimi, Naxçıvan Muxtar Respublikasında da hər bir vətəndaşın normal yaşayışı üçün kommunal xidmətlərin səviyyəsi yüksəldilir, əhalinin fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatı ön plana çəkilir. Bu baxımdan enerji ehtiyatlarının qeyri-qanuni istifadəsinə qarşı mübarizənin gücləndirilməsi istiqamətində əhalinin maarifləndirilməsinə diqqətin artırılması zəruridir.

Tədbirdə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təbii qaz, elektrik və ya istilik şəbəkələrinə qanunsuz qoşularaq bu enerji resurslarının xeyli miqdarda ziyan vurulmaqla talanmasına görə təqsirli bilinən şəxsin 1000 manatdan 3000 manatadək məbləğində cərimələnməsinin və ya 2 ilədək müddətə islah işləri ilə cəzalandırılmasının nəzərdə tutulduğu kənd sakinlərinə izah edilib. Həmçinin eyni əməllərin külli miqdarda ziyan vurulmaqla törədilməsinə görə təqsirli bilinən şəxsin 3000 manatdan 5000 manatadək məbləğində cərimə və ya 3 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırıla biləcəyi diqqətə çatdırılıb.

Həmçinin bildirilib ki, təbii qaz, elektrik və ya istilik şəbəkələrinə qanunsuz qoşulmaqla bu enerji resurslarının az miqdarda, yəni min manatdan aşağı məbləğdə ziyan vurulmaqla talanmasına görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində müvafiq cəzalar nəzərdə tutulub.

Ordubad rayon prokurorunun köməkçisi, II dərəcəli hüquqşünas Zamin Nəzərəliyev çıxış edərək ətraf mühitin mühafizəsi əleyhinə yönəldilmiş inzibati xətalar və cinayətlər, həmçinin qanunsuz ovetmə və ağackəsmə ilə müşayiət olunan ictimai təhlükəli əməllər haqqında, bu əməllərə görə cinayət və inzibati xətalar qanunvericiliyində nəzərdə tutulan cəzalar barədə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Aztəminatlı ailəyə baş çəkilib

Muxtar respublikada aztəminatlı ailələrin sosial problemlərinin həll olunması, o cümlədən insanların rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən çoxşaxəli tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Mütəmadi olaraq müvafiq kateqoriyadan olan ailələrə baş çəkilməsi də həmin tədbirlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi və Səhiyyə nazirliklərinin birgə təşkilatçılığı ilə Babək rayonunun Xəlilli kəndində yaşayan aztəminatlı, I qrup əlil Nurəddin Səfərəliyevin ailəsinə baş çəkilib. Adıçəkilən təşkilatların əməkdaşları aztəminatlı ailənin yaşayış vəziyyəti ilə maraqlanıb, ailə üzvləri tibbi müayinədən keçirilib, onlara ərzaq payı verilib.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Dövlət müstəqilliyimizin bərpasından sonra idmanın inkişafına böyük əhəmiyyət verilməklə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Dövlət başçısı, Milli Olimpiya Komitəsinin (MOK) Prezidenti cənab İlham Əliyev ölkədə idmanı inkişaf etdirmək üçün, ilk növbədə, idman infrastrukturunun yaradılmasının vacib olduğunu vurğulayaraq bu sahəyə daim xüsusi diqqət yetirir. Cənab Prezidentin idman sahəsində həyata keçirdiyi tədbirlərin əsas məqsədi ondan ibarətdir ki, bu inkişaf paytaxtla məhdudlaşmasın; inkişaf bütün ölkəyə yayılsın, idmanın kütləviliyi bütün regionlarda, bölgələrdə təmin edilsin. Nəticədə, həm paytaxtda, həm də bölgələrdə güclü idman bazası yaradılıb və bu proses bu gün də davam etdirilməkdədir. Əldə edilən nəticələr, yaradılan infrastruktur, idmançılarımızın qazandıqları uğurlar dövlətin idman sahəsində yürütdüyü siyasətin nə qədər doğru olduğunun göstəricisidir. Bu göstəriciyə nümunə kimi Naxçıvan Muxtar Respublikasında idman sahəsində qazanılan uğurları da göstərmək olar. Göstərilən qayğı, həyata keçirilən tədbirlər gənclərin həyatında mühüm dəyişikliklərə səbəb olub və bu dəyişikliklər qazanılan uğurlarla müşahidə olunmaqdadır.***

# Boks Federasiyasının uğurları artır

*Tarixə nəzər*

Naxçıvan Muxtar Respublikasında idmanın bütün sahələrində olduğu kimi, boks idman növünün də inkişafına daim diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, muxtar respublikada bu idman növü son illər daha geniş vüsət almağa başlayıb.

Boks hələ beş min il bundan əvvəl Misir və Babilistanda yumruq döyüşü əsasında yaranıb. Müasir boksa bənzəyən bu döyüşlər qədim Yunanıstanda da təşkil olunurdu. Eramızdan əvvəl 688-ci ildə boks antik olimpiya oyunlarının proqramına daxil edilib. Bu idman növü üzrə ilk olimpiya çempionu adına yunanıstanlı Onamastus layiq görülüb. Müasir boks isə XVIII əsrin əvvəllərində İngiltərədə təşəkkül tapıb. 16 avqust 1743-cü ildə İngiltərə çempionu Cek Broton ilk qaydalar toplusunu – Broton qaydalarını hazırlayıb. 1867-ci ildə isə Markiz Kuinsberrinin yeni boks yarışı qaydaları qəbul olunub. Bundan sonra boks idman növü kimi inkişaf etməyə başlayıb. Artıq görüş raundlarla keçirilir. Raundlararası qısa fasilələrdə idmançıların dincəlməsi yarışın tempini və hərəkət dinamikasını xeyli artırır.

1924-cü ildə Beynəlxalq Həvəskar Boks Federasiyası yaradılıb. İlk Avropa çempionatı da məhz həmin il təşkil olunub. Boks üzrə ilk dünya çempionatı isə bundan 50 il sonra – 1974-cü ildə keçirilib.

Azərbaycanda bu idman növü XX əsrin əvvəllərində təşəkkül tapıb. O dövrlər Bakıya işləməyə gələn əcnəbi fəhlə və mühəndislər, neft sənayesi üzrə mütəxəssislər idmanın bu növünü Azərbaycanda yaymağa başlayıblar. 1924-cü ildə Azərbaycan Boks Federasiyası təsis edilib. 1926-cı ildə ilk dəfə olaraq boks üzrə Azərbaycan çempionatı keçirilib. Həmin il Azərbaycanın ən güclü boksçuları Zaqafqaziya çempionatında iştirak edib və qalib olublar. 1999-cu ildə isə Azərbaycanda boksa olan maraq idman ictimaiyyətinin diqqətindən yayınmayıb və boks tarixində ilk dəfə olaraq Bakıda yeniyetmələr arasında (15-16 yaşlılar) Avropa çempionatı keçirilib. Həmin yarışda boksçularımız qitənin əksər güclü komandalarını qabaqlayaraq ikinci yeri tutublar. Olimpiya oyunlarında boksçularımızın ilk uğuru isə 2000-ci ildə keçirilmiş Sidney Olimpiadasına təsadüf edir. Planetin ən böyük yarışında 75 kiloqram çəki dərəcəsində mübarizə aparmış Vüqar Ələkbərov bürünc medala layiq görülüb.

*Uğurlu 2 il*

Yuxarıda da qeyd etdiyimiz kimi, bu idman növü son zamalar Naxçıvan Muxtar Respublikasında da geniş vüsət alıb. Naxçıvan Muxtar Respublikası Boks Federasiyası hər il bir-birindən mükəmməl turnirlər təşkil etməklə gənclərin bu idmana olan marağını daha da artırmağa çalışır. Bu idman növündə qazanılan uğurlar haqda məlumat əldə etmək və görülən işlərlə tanış olmaq üçün Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyevlə həmsöhbət olduq. Məmmədcəfər müəllimdən, ilk olaraq, ötən il federasiya tərəfindən görülən işlər barədə məlumat aldıq: "2013-cü ildə Boks Federasiyası bir çox tədbirlər, yarışlar, turnirlər keçirib. Bu da Naxçıvan Muxtar Respublikasında bu idman növünə olan maraqdan irəli gəlir. Təşkil etdiyimiz turnirlər bir çox gəncimizin istedadının üzə çıxarılmasına imkan verib. Təbii ki, bu, muxtar respublikada idmanın inkişafına göstərilən qayğının nəticəsidir".

Boks Federasiyasının sədr müavini M.Əliyev ötən il keçirilən turnirlərdə, respublika birinciliklərində qazanılan uğurlar barədə də danışdı: "2013-cü ilin fevral ayında Bakıda gənclər arasında Azərbaycan birinciliyi keçirildi. Bu yarışda ölkənin 35 komandası mübarizə aparırdı ki, Naxçıvan idmançıları da nəyə qadir olduqlarını nümayiş etdirdilər. 52 kiloqram çəki dərəcəsində Tayfur Əliyev keçirdiyi 5 görüşün hamısında qalib gələrək qızıl medala layiq görüldü. 70 kiloqramda Nihad Orucov, 76 kiloqramda isə Çingiz Cəfərov yalnız finalda məğlub oldular. Qeyd edək ki, Tayfur Əliyevin Azərbaycan birinciliyinin qalibi olması onun qazandığı yeganə uğur deyil. Belə ki, Tayfur Əliyev may ayında keçirilən "Heydər Əliyev Kuboku"nun da qalibi olub. Beynəlxalq turnirdə 12 ölkədən 200-dən artıq idmançı iştirak edirdi. Bu yarışda milli komandamızın heyətində 3 naxçıvanlı boksçu – Tayfur Əliyev (52 kq), Sərxan Əliyev (48 kq) və Nihad Orucov (76 kq) rinqə çıxdı və Tayfur beynəlxalq turnirin qalibi oldu".

Ümumilikdə, 2013-cü ili Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirmələri üçün uğurlu hesab etmək olar. Çünki idmançılarımız keçirilən hər bir turnirə iddialı yollanıblar və həmişə asan rəqib olmadıqlarını göstəriblər. Ötən ilin aprel ayında daha bir turnirdə boksçularımız inamla mübarizə apardılar. Həmin turnir haqda Məmmədcəfər Əliyevin dedikləri: "Ötən ilin aprel ayında yeniyetmələrin altıncı respublika oyunları keçirildi və bu yarışda Naxçıvan komandası da iştirakçılar arasında idi. 33 komandanın dəvət aldığı turnirdə sevindirici hal o oldu ki, boksçularımız hamını qabaqlayaraq turnirin qalibi oldular. Nihad Quliyev (46 kq), Arif Bayramov (52 kq) və İman Vəliyev (76 kq) bütün rəqiblərini məğlub edərək ən yüksək pillədə qərarlaşdılar. 48 kiloqram çəki dərəcəsində İbrahim Cəfərzadə isə yalnız finalda məğlub olaraq gümüş medala layiq görüldü. Üç boksçumuz isə bürünc medalla kifayətləndi".

Məmmədcəfər Əliyev 2014-cü ilin birinci yarımilində keçirilən yarışlar və əldə olunan uğurlar haqqında bunları dedi: "İlin ilk 6 ayında muxtar respublika boksçuları ölkə birinciliklərində uğurlara imza atıblar. Yanvar ayında Bakı şəhərində keçirilən gənclərin Azərbaycan birinciliyində Tayfur Əliyev gümüş medal qazanıb. Fevral ayında isə yeniyetmələrin ölkə birinciliyi idmançılarımız üçün daha yaddaqalan olub. Boksçularımızdan üç nəfər – çəkisi 50 kiloqram olan Sərxan Əliyev bütün görüşlərini qələbə ilə başa vuraraq qızıl, 80 kiloqram çəki dərəcəsində mübarizə aparan Nihad Orucov gümüş, 75 kiloqramda isə Toğrul İsmayıllı bürünc medallar qazanıblar. Yaddaqalan yarışlardan biri də may ayında Bakı şəhərində təşkil olunan birincilik idi. Kiçikyaşlı boksçular arasında keçirilən Azərbaycan çempionatında İman Vəliyev (76 kq) qızıl, Muxtar Fərzəliyev (40 kq), Elçin Məmmədov (56 kq) və Tural Əkbərli (65 kq) isə bürünc medallar qazanaraq muxtar respublikada bu idman növünün inkişafına göstərilən qayğının hədər yerə getmədiyini nümayiş etdirdilər".

Nəticə etibarilə, boksçularımız ilk 6 ay ərzində təkcə Azərbaycan birinciliyi üzrə keçirilən yarışlardan iki qızıl, iki gümüş və dörd bürünc medallarla Naxçıvana qayıdıblar. Biz bu medalların sayı ilə kifayətlənmək fikrində deyilik və çalışacağıq ki, uğurlarımızın sayını artıraq. Qarşıda bizi bir sıra turnir və yarışlar gözləyir. Həmin turnirlərə uğurla çıxış edəcəyimizə inanırıq. Hər gün mütəmadi olaraq məşqlərimizi davam etdiririk".

Sonda federasiyanın sədr müavini yaradılan şəraitə görə minnətdarlıq etdi: "Boksçularımız keçirilən turnirlərə İlham Əliyev adına Olimpiya-İdman Kompleksində, Naxçıvan Muxtar Respublika Stadionunda və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində hazırlaşırlar. Naxçıvanda boks idman növünə hədsiz dərəcədə maraq var və idmançılarımızın uğurlu çıxışı üçün hər cür şərait yaradılıb. Buna görə muxtar respublika rəhbərinə dərin minnətdarlığımızı bildiririk. Çalışırıq ki, bizə göstərilən etimadı qazandığımız uğurlarla doğruldaq. Əgər şərait yaradılıbsa, biz bundan səmərəli istifadə etməli və nailiyyətlər qazanmalıyıq".

✍ **Ceyhun MƏMMƏDOV**

# Naxçıvan şəhər birinciliyinə yekun vurulub

İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmə oğlan və qızlar arasında üzgüçülük üzrə şəhər birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin təşkilatçılığı ilə keçirilən birinciliyin açılış mərasimində Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Gənclər və İdman Nazirliyinin əməkdaşı Cəmilə Mirzəyeva və kompleksin direktoru Ramin Talıbov çıxış edərək yarış iştirakçılarına uğurlar arzulayıblar.

Qızların mübarizəsində 12 idmançı çıxış edib. Üzgüçülüyün 25 metr məsafəyə sərbəst üsulu üzrə keçirilən yarışda Nərmin İsmayılova bütün rəqiblərini qabaqlayaraq turnirin qalibi olub. İkinci və üçüncü yerlərin sahibi isə Arjin Doğan və Aysel Yusifzadə olub.

Oğlanlar isə üç yaş qrupunda mübarizə aparıblar. 1999-cu il təvəllüdlü üzgüçülərin yarışında Elşən Babayev, Nihad Quliyev və Rza Abdullayev müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerləri bölüşüblər. 2000-2001-ci il təvəllüdlü iştirakçılardan isə Ülvi Kazımlı, Elçin Əliyev və Vasif Rüstəmov bütün rəqiblərini geridə qoymağı bacarıblar. Sonda mübarizəyə 2002-2004-cü il təvəllüdlü üzgüçülər qoşulublar. Bu yaş qrupunda Timur Abdullayev, Həsən Abbasov və Məhəmməd Abbasquliyev müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerlərin sahibi olublar.

Sonda qaliblərə və fərqlənən idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

✍ **C.MƏMMƏDOV**

# Gənc rəssamlara ustad dərsi keçilib



Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində gənc rəssamlar üçün ustad dərsi keçilib. Bakı şəhərindən dəvət olunmuş həmyerlimiz, Azərbaycan Respublikasının əməkdar rəssamı Eldar Qurbanov gənc rəssamlara abstrakt cərəyanda çəkilən rəsmlər haqqında məlumat verib, modern üslubda işlənən bu növ rəsmlərin texnikasından danışıb. Hazırda dünyada bu janra maraq göstərən xeyli rəssamın olduğunu söyləyən Eldar Qurbanov gələcəkdə bu sahədə naxçıvanlı rəssamların da uğur qazanacaqlarına əminliyini bildirib, onlara yaradıcılıqlarında müvəffəqiyyətlər arzulayıb.

Qeyd edək ki, Əməkdar rəssam Eldar Qurbanov "Naxçıvan – bəşəriyyətin beşiyi" adlı I və II Beynəlxalq Rəsm festivallarının iştirakçısı olub.

# Tibb işçiləri üçün seminar-məşğələlərə başlanılıb

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə təcili tibbi yardım sahəsində çalışan tibb işçiləri üçün Naxçıvan Tibb Kollecində seminar-məşğələlərə başlanılıb.*

İlk seminar-məşğələdə Naxçıvan Muxtar Respublikası Xəstəxanasının həkimləri Bəxtiyar Hüseynovun "Terminal vəziyyət, onun dəyərləndirilməsi" və Yaşar Rzayevin "Travmalar haqqında məlumat. İmmobilazasiya, şinaların qoyulması və yaralıların daşınması" mövzularında mühazirələri dinlənilib. Seminar-məşğələdə əyani vasitələrdən istifadə olunub, tibb işçilərini maraqlandıran suallar cavablandırılıb.



Seminar-məşğələnin ilk günündə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov çıxış edərək bildirib ki, gündəlik həyatımızda rast gələnən bəzi hadisələr nəticəsində insanlar sağlamlıqları baxımından təhlükələrlə üzləşirlər. Bu zaman onlar üçün düzgün ilkin tibbi yardımın göstərilməsi təxirəsalınmaz zərurətə çevrilir. Bu hadisələr zamanı insanların həyatının xilas edilməsi vaxtında, məqsədyönlü surətdə aparılan ilk tibbi yardımdan asılı olur. Şöbə müdirinin sözlərinə görə, vaxtında və düzgün aparılan ilk tibbi yardım xəstəliyin inkişafını ləngidir, gələcək ağırlaşmaların qarşısını alır. Bu baxımdan təcili tibbi yardım sahəsində çalışan tibb işçilərinin hərtərəfli hazırlığı məqsədilə təşkil edilən seminar-məşğələlər mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimləri tərəfindən keçirilən seminar-məşğələlər qruplar üzrə həftədə iki dəfə olmaqla sentyabrın 12-dək davam edəcək.

✍ **Sona MİRZƏYEVA**

## İtmişdir

Hüseynova Dürdanə Cəbrayıl qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şıxmahmud kəndində yaşayan Məmmədova Zuxra Yamənovnanın adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 0004010 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Qasımov Əsgər Cəfər oğlunun adına verilmiş 001467 nömrəli Azərbaycan Respublikası müharibə veteranının vəsiqəsi itdiyindən etibarsız sayılır.

## Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova və Reanimasiya və cərrahiyyə şöbəsinin əməkdaşları iş yoldaşları Aysel İsmayılovaya, əzizi **HEYDƏRƏLİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Bəhriyyə Əliyeva, Şəhla Əzimova, Hafizə Mirzəyeva, Səkinə Abutalıbova və İradə Əsgərova iş yoldaşları Aysel İsmayılovaya, əzizi **HEYDƏRƏLİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Gülnarə Hümbətova, Nazlı Kəngərli, Hafizə Rzayeva, Aminə Dünyamalıyeva, Zəkiyyə Salmanova və Zəminə Şirinova iş yoldaşları Aysel İsmayılovaya, əzizi **HEYDƏRƏLİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Təhsil Şöbəsinin Metodkabinetinin müdiri Qızıllı Əliyeva və 8 nömrəli tam orta məktəbin müəllimlərindən Çinarə Rzayeva, Məleykə Bağırova, Məhəbbət Mehdiyeva və Surə Musayeva Hacıbəyim Məmmədovaya, anası **NƏRGİZ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Sabir Novruzov, Nüşabə Əliyeva, Bəhriyyə Novruzova, tibb işçilərindən Südabə Aslanova, Bilqeyis Ələsgərova və Hədiyyə Heydərova iş yoldaşları Aysel İsmayılovaya, əzizi **HEYDƏRƏLİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Leyla Məmmədxanova, Səidə Seyidova, Sevinc Məmmədova, Məlahət Həsənova və Dilarə Rzayeva iş yoldaşları Aysel İsmayılovaya, əzizi **HEYDƏRƏLİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktorun müavini:
SƏYYAR MƏMMƏDOV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 690